# İnsan hüquq və azadlıqlarının müdafiəsinə həsr olunmuş tədbir

Daşkəsən rayonunda "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nın icrası, təbliği və tətbiqi vəziyyətinin öyrənilməsi, həmçinin qarşıda duran vəzifələrlə bağlı Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) Elmira xanım Süleymanovanın iştirakı ilə tədbir keçirildi.

Tədbirdə rayon icra hakimiyyətinin, ərazi icra nümayəndəliklərinin, məhkəmə, polis, prokurorluq orqanlarının, bələdiyyələrin, yerli qeyri-hökumət təşkilatlarının, fəal gənclər, ağsaqqallar, ziyalılar, ictimaiyyət nümayəndələri iştirak edib.





Tədbiri Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev açaraq bildirdi ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı ilə əlaqədar 27 dekabr 2011-ci il tarixli 1938 nömrəli sərəncam imzalanmışdır.

Tədbirdə İnsan hüquqları üzrə müvəkkil (Ombudsman) Elmira xanım Süleymanova çıxış edərək bildirdi ki, Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq əsas vəzifələrdən biridir. Bu məqsədlə yuxarıda qeyd olunan dövlət proqramı uğurla həyata keçirilir. Natiq eyni zamanda bu işin daha da yaxşılaşdırılmasının vacibliyini vurğuladı.

Müzakirələrdə Daşkəsən şəhər bələdiyyə sədrinin müavini Duman Mahmudova, A.Mürsəlov adına 2 saylı tam orta məktəbin direktoru Aybəniz Vəliyeva və digərləri çıxış edərək insan hüquqlarının müdafiəsi sahəsində həyata keçirilən tədbirlər barədə yığıncaq iştirakçılarına məlumat verdilər və bu işi daha da yaxşılaşdırmaq üçün təkliflərini və mülahizələrini söylədirlər.

Tədbirdən sonra İnsan hüquqları üzrə müvəkkil (Ombudsman) Elmira xanım Süleymanova rayon ərazisində yerləşən "N" saylı hərbi hissədə əsgərlərə yaradılmış şəraitlə maraqlanmış, rayon Polis şöbəsində olmuşdur.

**Eyvaz HƏMİD,**
**"Respublika".**